# MÜRƏKKƏB SİNTAKTİK BÜTÖV MƏTN VAHİDİ KİMİ

**Sonaxanım SADİQ**

Qafqaz Universiteti,
Bakı / AZƏRBAYCAN

**XÜLASƏ**

Məqalə mürəkkəb sintaksis bütövün mətn vahidi olaraq tədqiqinə həsr olunmuşdur. Haqqında danışılan vahid kommunikasiya prosesində mühüm faktor olmaqla bərabər formal və düşüncə əlaqələrini səciyyələndirir.

**Açar sözlər:** Cümlə, sintaksis, sintaksis bütövlər

**COMPLEX SYNTACTIC WHOLE AS A UNIT OF TEXT**

**SUMMARY**

The paper investigates complex syntactic whole as a unit of text. This unit is an important factor in the process of communication. It is characterized by formal and semantic connectedness.

**Key words:** Sentence, syntactic, syntactic whole

Məlum olduğu kimi sintaktik sistemdə ortaya çıxan və tədqiq edilən problemlər ənənəvi olaraq 4 böyük sintaktik quruluş-söz birləşməsi, sadə cümlə, mürəkkəb (tabeli) cümlə və mürəkkəb sintaktik bütöv fonunda görünür. Digər tərəfdən nitq fəaliyyəti baxımından, ümumiyyətlə, sintaktik quruluşları iki yerə ayırmaq daha məqsədə uyğun olardı. Yəni cümlə və mürəkkəb sintaktik bütöv-ünsiyyət vasitəsinin bu iki amili – biri nitq prosesinin əsası kimi (cümlə), digəri onun yaradıcısı, reallaşdırıcısı kimi (mürəkkəb sintaktik bütöv) müəyyən mənada həm qarşı-qarşıya qoyula bilər və həm də biri digərini tamamlayan vahidlər kimi nəzərdən keçirilə bilər.

Cümlə daxilindəki sadə və mürəkkəb ayrılmalar isə prinsip etibarilə nitq fəaliyyəti və yaxud kommunikativ baxımdan əhəmiyyət kəsb etmir. Amma bu ayrılma dil strukturu nöqteyi-nəzərindən əhəmiyyətlidir. Və məhz mürəkkəb cümlə (artıq yalnız tabeli mürəkkəb cümləyə bərabər) ayrılması sintaktik səviyyənin dil aspektindən də dolğunluğunu təmin edir.

Adətən söz birləşməsi cümlədən-predikativ sintaktik vahiddən fərqli olaraq qeyri-predikativ sintaktik vahid kimi təqdim olunur. Predikativlik öz növbəsində söz yığımına kommunikativ vahid rolunu oynamağa imkan verir. Söz yığımı məhz predikativliyə görə cümləyə çevrilir. Cümlə, həmçinin, ikinci dərəcəli olan digər funksiyaları yerinə yetirə bilir. Qeyd etmək lazımdır ki, iki və daha çox cümlənin mümkün birləşməsinin verdiyi mürəkkəb cümlə, yəni, iki və daha çox cümlənin vahid kommunikativ məqsədlə birləşdiyi mürəkkəb cümlə sintaktik bir quruluş kimi öz funksiyasını bir cümlədən ibarət sadə cümləyə nisbətən sintaktik planda daha geniş şəkildə, kommunikativ planda isə daha məqsədyönlü şəkildə həyata keçirir. Təbii olaraq sadə cümlə ilə müqayisə mürəkkəb cümlənin kommunikativ sahəsi də xeyli genişdir. Və təbii ki, bu yenilik mürəkkəb cümlənin struktur-semantik quruluşunda da özünü göstərir. Bütün bu keyfiyyətlərinə görə mürəkkəb cümlə tam hüquqla sadə cümləyə münasibətdə sintaktik sistemin

iyerarxik cəhətdən daha yüksək vahidi sayıla bilər.

Mürəkkəb cümlə ilə sadə cümlənin sintaktik sistemdəki iyerarxik münasibətləri barədə müəyyənlik əldə ediləndən sonra mürəkkəb cümlənin özünə bilavasitə konseptual bir anlayış kimi yanaşmaq lazımdır. Bununla bağlı ilk növbədə mürəkkəb cümlə termininin istifadə olunması və tabeli-tabesiz mürəkkəb cümlələrin fərqləndirilməsinin məqsədəuyğunluğu kimi məsələlər ön plana çıxır [1].

Zənnimizcə, mürəkkəb cümlə termini öz dolğunluğu ilə yalnız tabeli mürəkkəb cümlə anlayışında işlənməlidir. Belə ki, tabesiz mürəkkəb cümlə daxilindəki komponentlərin struktur-semantik xüsusiyyətləri onlara müstəqil sintaktik vahid kimi baxmağa əsas verir. Nitqdə həm bu tip cümlələrə xas minimal sayda üzvlərdən ibarət mürəkkəb cümlələr, həm də mürəkkəb cümlələrin ("çoxüzvlü", və yaxud "mürəkkəb cümlələrin mürəkkəbləşmiş tipi") minimal konstruksiyalarının müxtəlif cür birlikləri olan mürəkkəb cümlələr mövcuddur. Minimal saylı üzvlərdən ibarət cümlələr predikativ vahidlərin ayrılmasının səbəbi olan bir üzvlənmə səviyyəsinə, mürəkkəbləşmiş mürəkkəb cümlələr isə bir neçə üzvlənmə səviyyəsinə malikdirlər. Beləliklə, mürəkkəbləşmiş mürəkkəb cümlələri əsas fərqləndirən cəhət onların daxillərindəki predikativ vahidlərin müxtəlif strukturlu sxem əsasında birləşməsindən ibarət olmasıdır. Faktiki, müxtəlif strukturlu cümlələrin birliyi olan mürəkkəb cümlə artıq ənənəvi cümlə anlayışında cavab vermir və 50-ci illərdən başlayaraq bir çox dilçilik tədqiqatlarında belə birliklər mətn və yaxud mürəkkəb sintaktik bütöv termin ilə adlandırılır. N.S.Pospelovun fikrincə, vasitəli nitqdə ayrı-ayrı cümlələr deyil, cümlələr qrupundan ibarət olan daha mürəkkəb sintaktik birliklər qapalı sintaktik struktura malikdir və bitmiş fikir ifadə edir. Buna görə də, müəllif sərbəst cümlələrin belə qruplarını funksional planda cümlə ilə müqayisədə yüksək sıralı sintaktik vahid kimi qiymətləndirir [1].

Lakin qeyd etmək lazımdır ki, cümlədən yüksəkdə duran törəmələrin mahiyyət və xüsusiyyətlərinə yekdil baxış mövcud deyil. Bir sıra müəlliflər onların ayrılması probleminin qoyulmasının özünün düzgünlüyünü şübhə altına alaraq, ümumiyyətlə, cümlədən yüksək vahidlərin olmasını inkar edirlər.

Cümləfövqi vahidlərin ayrılması əleyhdarları öz fikirlərini müxtəlif cür izah edirlər. Onlardan bəziləri cümlənin daha böyük vahidə inteqrant kimi daxil olmasının qeyri-mümkünlüyünü cümlənin təbiəti, onun xüsusiyyətləri və spesifikası ilə izah edirlər. Belə ki, E.Benevenist yazır: "Cümlə digər növ vahidlər üçün inteqrant ola bilməz. Bu, hər şeydən əvvəl yalnız cümləyə xas olan və onu bütün digər vahidlərdən fərqləndirən xüsusiyyətlə, yəni predikativlə izah olunur" [3, 39].

Müxtəlif dillərin materialı əsasında cümlədən yüksəkdə duran vahidlərin tədqiqi ilə məşğul olan dilçilər burada məhz bu törəmələr üçün səciyyəvi olan və dil haqqında elm üçün böyük maraq kəsb edən bir sıra xüsusiyyətlər aşkar edirlər. Problemin həm bütövlükdə həllinə, həm də onun ayrı-ayrı aspektlərinin analizinə həsr olunmuş işlərin miqdarının artması bu problemin öyrənilməsinə verilən diqqətin nəticəsidir [1, 4, 5, 6].

Artıq dilçilikdə cümləfövqi birliklərin hərtərəfli öyrənilməsi vacibliyi fikri hökmrandır və dilçilər mətn və yaxud mürəkkəb sintaktik bütövün sintaktik sistemdə yerinin müəyyənləşdirilməsi üçün addımlar atmaqdadırlar. Bu sahədəki konsepsiyalar əsasında həm dilin mahiyyət etibarilə xüsusiyyətlərinin, həm də onun fəaliyyət proseslərinin təhlili zamanı mətnin cümlə üzə-

rində tam üstünlüyü prinsipi durur. Hətta dilin funksiyaları arasında mətn funksiyası ayrılır və bu funksiya dil informasiyasını ötürənin mətn yaratmaq bacarığını nəzərdə tutur. Digər tərəfdən, dilçilər mətn tədqiqatları çərçivəsində konkret hadisələ-rin təhlili zamanı həmin hadisələrin cümlə sintaksisində də baxıldığı qənaətinə gəlmiş və bunu bir sıra səbəblər, o cümlədən ayrı-ayrı cümlələrin mətn funksiyasını daşımaq bacarığı, yəni mətn hadisəsi kimi söyləm rolunu oynaya bilməklə, eləcə də bəzi mətnlərarası xüsusiyyətli münasibətlərin (məsələn, anaforik əlaqə), cümlə daxilində də mümkünlüyü ilə izah etmişlər [7].

Bundan əlavə, ümumi semantik və formal qrammatik əlamətlərin məna və struktur bütövlüyə gətirən iki və daha çox cümlə şəklindəki birliyi olan mətnin (yəni mikromətn, mürəkkəb sintaktik bütöv, frazafövqü vahid, frazafövqü birlik) həm də müstəqil təhlil obyektinə çevrilməsinin bir sıra səbəbləri informasiya nəzəriyyəsinin əsas anlayışları ilə bağlıdır [1]. Belə ki, müəyyən mənada bir-birinə bərabərləşdirilən subyekt və predikat hissələrin birliyi kimi çıxış edən cümlə prinsip etibarilə heç bir informasiya ötürmür. Mətn isə əksinə, tərkibinə daxil olan cümlələr arasındakı müxtəlif daxili, gizli semantik-qrammatik, dəyər kimi özünü göstərir. Onun bu xüsusiyyətinə görə də vahid kimi olduğu sahəni, yəni mətn dilçiliyinin ayrıca müstəqil dilçilik sahəsi kimi ayırmaq məqsədə uğundur.

Məlumdur ki, mətnin ən azı iki cümlədən ibarət olması ideyası aparıcıdır. Çünki bir cümlə yalnız bir elementar predikativ məzmundan ibarət müəyyən bir bütövdür, digər tərəfdən isə, mətni yazıda fiksasiya olunmuş nitq əsəri kimi qəbul etsək, cümləni də mətn hesab etmək olar. Mətn haqqında cümlə üzərində struktur mənada üstünlük təşkil edən bir vahid kimi təsəvvürümüz bizim intuitiv, qeyri-elmi təsəvvürlərimizə söykənir. Cümləni struktur-semantik planda cilalanmış hesab etsək, buradan belə nəticəyə gəlmək olar ki, mətn cümlədən daha böyük bir vahiddir. Bunu mətnin aşağı sərhədləri haqqında mülahizələrin məntiqi hesab etmək olar. Mətnin yuxarı sərhədləri haqqında təsəvvürlər də təqribən bu cür qeyri-elmi səciyyə daşıyır. Əgər biz xüsusilə də ideya-tematik birlik nöqteyi-nəzərindən çıxış etsək, bu sərhədləri müəyyənləşdirmək çox çətindir.

Cümlənin mürəkkəb mahiyyəti, onun tipinə görə mürəkkəb forması struktur münasibətləri də tabeli şəklə salır və buradan da belə nəticə çıxarmaq olar ki, tabesiz mürəkkəb cümlə» kimi ayrılan cümlə tipi vahid bütövlük təşkil etmir. Belə ki, bu sintaktik kompleksin komponentləri arasındakı qarşılıqlı əlaqələr prinsip etibarilə hər hansı bir bütöv mətn üçün özünü doğrultmur. Bu əlaqələr sintaktik kateqoriya kimi ayrılan cümlə üçün spesifik deyil, mətn üçün spesifikdir. Bu sonuncu fikirdən belə qənaətə gəlmək olar ki, bir halda ki, tabesiz mürəkkəb cümlələr, ümumiyyətlə mövcud deyil, təbii olaraq uyğun terminlərə də ehtiyac qalmır və eyni zamanda təbii olaraq tabeli mürəkkəb cümlə termininə də ehtiyac qalmır. Bu sonuncuları sadə cümlələrin əksinə olaraq, mürəkkəb cümlə kimi adlandırmaq kifayətdir. Bunun nəticəsində, bizə belə gəlir ki, ənənəvi olaraq tabesiz mürəkkəb cümlə kimi öyrənilən sintaktik hadisənin tədqiqini tam şəkildə daha yüksək sintaktik birləşmənin, məhz mətnin sintaktik sərhədlərinə daxil etmək lazımdır.

Biz K.Abdullayevin ardınca mətnə cümlənin məna nöqteyi-nəzərindən nisbi qeyri-bitkinliyini, müəyyən semantik çatışmazlığını aradan qaldıran kommunikativ kompleks kimi baxırıq [1]. Bu kompleks tam məna bitkinliyi nümayiş etdirir və semantik informasiyanın ötürülməsi və qəbul edilməsi prosesində əsas faktor kimi çıxış edir. O, nitq fəaliyyətinin digər kateqoriyaları kimi, məsələn, cümlə kimi sintaktik

iyerarxik sistemə daxil olur. Başqa sözlə desək, digər linqvistik kateqoriyalarla onun arasında konkret qarşılıqlı münasibətlər zənciri qurulur və əslində mürəkkəb sintaktik bütöv özünü cümləyə nisbətən daha yüksəkdə duran sintaktik vahid kimi aparır. Çünki o, cümləyə münasibətdə həm struktur, həm də semantik planlarda daha geniş şaxəli mürəkkəblik nümayiş etdirir.

Mətn cümlə kimi sintaktik kateqoriya olduğuna görə onun bəzi konkret əlamətlərinə malik olur, yəni mətni də eyni ilə cümlə kimi başlanğıc, orta və son mərhələlərə bölmək mümkündür. Belə ki, mətnin başlanğıcı sanki, bütün mətn quruluşunun əsas tematik düyününə çevrilir və adətən, ümumi girişdə xarakterizə olunur ki, ümumi giriş də mətnin qurulması prosesi boyu tədricən konkretləşdirilir.

Qeyd etmək lazımdır ki, bu bölgü əsasən mikrotekstin yəni mürəkkəb sintaktik bütövün quruluşuna aiddir. Adətən bu konkretləşdirmə təkrar olunan komponenti ya açıq şəkildə eksplisit, ya da gizli şəkildə implisit mətnə daxil edilməsi ilə bağlıdır. Faktiki bu təkrar tam və yaxud natamam şəkildə nitq axarında üzə çıxır. Əgər bu təkrarlanma qeyri-dəqiq şəkildə ifadə olunursa, mətnin başlanğıc və son mərhələləri arasında konkret uyğunluqlar müəyyənləşdirməyə imkan verən bəzi məntiqi-sintaktik əməliyyatlardan istifadə oluna bilər. Həmin əməliyyatlar, məsələn, mətnin başlanğıcını onun sonunda bərpa etmək imkanı verir və beləliklə struktur kompozisyon funksiya daşıyır. Bu özünü onda göstərir ki, təkrar komponentlərlə çərçivələndikləri zaman əlaqəli cümlələr toplusu bitkin mürəkkəb sintaktik bütövə çevrilir.

Göründüyü kimi təkrar mətnin sərhədlərini göstərən ən vacib sintaktik məqam kimi özünü göstərir. Mətnin struktur-kompozisyon sərhədlərinin müəyyənləşdirilməsində bu deyilən meyarın əhəmiyyətini görməmək mümkün deyil. Nitq axarında mətnin çərçivəli xarakteri məzmun axınını hissələrə bölməyə imkan verir və təbii ki, onu ciddi və möhkəm sərhədlərin içinə salır.

### ƏDƏBİYYAT


1. Abdullayev K.M. Azərbaycan dili sintaksisinin nəzəri problemləri. Bakı, Elm, 1998, 279 s.
2. Поспелов П.С. О некоторых синтаксических категориях. В кн.: Еджиницы разных уровней грамматического строя языка и их взаимодействие. Москва, 1969, с. 29-45.
3. Бенвенист Э. Уровни лингвистического анализа – Новое в зарубежной лингвистике. Вып IV, Москва, Прогресс, 1965, с. 39-55.
4. Гальперин И.Р. Текст как объект лингвистического исследования. Москва, Наука, 1981, 137 с.
5. Тураева З.Я. Лингвистика текста (текст: структура и семантика). Москва, 1986, 126 с.
6. Givon T. Syntax: A Functional-Typological Introduction. Vol. I, 1984. Vol. 2. 1990. Amsterdam: Benjamins, 486 p.
7. Halliday M.A.K. Linguistic Function. Literary Style. An Inquiry into the Language of William Goldings. The Inheritors "Literary Style A Symposium", Ed. Seymour Chatman. Oxford University Press. London New York. 1971, p. 330-368.